# Biz nəfsimizdə dilə gətirə bilməyəcək dərəcədə böyük bir hisslər keçiririk. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Həqiqətən bu hissləri keçirirsinizmi? "Onlar "Bəli" deyə, cavab verdilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Bunu hiss etməyiniz sizin həqiqi imanınızı göstərir

Əbu Hureyranın (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrindən bəziləri gəlib ondan soruşdular:Biz nəfsimizdə dilə gətirə bilməyəcək dərəcədə böyük bir hisslər keçiririk. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Həqiqətən bu hissləri keçirirsinizmi? "Onlar "Bəli" deyə, cavab verdilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Bunu hiss etməyiniz sizin həqiqi imanınızı göstərir."
[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrindən bir qrup şəxs onun yanına gələrək, nəfslərinə gələn, lakin, çirkinliyinə görə dilə gətirilməyəcək qədər ağır olan fikirlər haqqında soruşurlar. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur: Həqiqətən şeytanın qəlbə təlqin (vəsvəsə) etdiyi şeyləri dilə gətirməyə mane olan səbəb, içinizdəki narahatçılıq, onun nəfsinizdə böyük iz qoyması, səmimi imanın və yəqinliyin əlamətidir. Şeytan mudafiəsiz görüb qərar tutduğu qəlblərdən fərqli olaraq, sizin qəlblərinizi ələ keçirməyi bacarmadı.

https://sunnah.global/hadeeth/az/show/65011